Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 120-124

DOI:10.30546/gdu.3.2024

UOT:327.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TRANSFORMASİYASI

***Əlizadə İlahə Arif qızı***

***Bakı Dövlət Universiteti***

***ilaha.ibrahimova@gmail.com***

**Xülasə:** *Qloballaşma mövzusu digər sahələrdə olduğu kimi beynəlxalq siyasət və beynəlxalq münasibətlər sahəsində də xüsusi əhəmiyyətə malikdir. Belə ki, qloballaşma prosesi ilə ortaya çıxan çox sayıda yeni dövlət, qeyri hökümət təşkilatı, transmilli korporasiyalar, hökümətlərarası təşkilatlar beynəlxalq siyasi mühütün də transformasiyasına səbəb olmuşdur. Artıq beynəlxalq münasibətlər dedikdə təkcə ənənəvi dövlətlər arasındakı münasibətlər deyil, eyni zamanda beynəlxalq aləmdə böyük nüfuza malik olan yeni aktyorları arasındakı çox şaxəli münasibətlər başa düşülür.*

**Açar sözlər:** qloballaşma, siyasət, beynəlxalq əlaqələr, beynəlxalq aktyorlar

**Ключевые слова:** глобализация, политика, международные отношения, международные акторы

**Keywords:** globalization, politics, international relations, international actors

## Qloballaşma Prosesi və Yanaşmaları

Qloballaşma dünyada siyasi, iqtisadi və sosial prosesləri əhatə edən bir prosesə verilən addır. Bu gün qloballaşan dünya, vahid bir dünya kimi görünür. Termin olaraq “qlobal” sözünün kökləri çox əvvələrə getsə də “qloballaşma” termini daha yeni sayılır. 80-ci illərdə termin olaraq istifadə edilməyə başlanan və 90-cı illərlə birlikdə həyatın hər sahəsində geniş bir şəkildə istifadə edilən qloballaşma prosesinin keçmişə getdiyini görmək mümkündür. Qloballaşma anlayışı ilk dəfə 1833-cü ildə İngilis iqtisadçısı W. Foter tərəfindən dünyada mənbələrinin bölüşdürülməsi və istifadəsi ilə bağlı yazdığı məqaləsində istifadə edilmişdir. Daha sonra 4 aprel 1959-cu ildə “The Economist”-də ortaya çıxdı. Bu gün qloballaşma dedikdə ilk olaraq iqtisadiyyat sahəsindəki gəlişmələr ağla gəlməkdədir. Qloballaşma ayrı-ayrı ölkə iqtisadiyyatlarının vahid dünyanın yalnız bir halqasını təşkil edən dünya iqtisadiyyatının inkişafı prosesidir [1, s.13-14].

Beynəlxalq iqtisadiyyatın möhkəm maliyyə bünövrəsini yaratmaq məqsədilə 1944-cü ildə yaradılan Bretton-Vud (Bretton Woods) beynəlxalq maliyyə sisteminə əsaslanır. Bu dövrdə ticarət və sərmayə sahəsindəki maneələr tədricən aradan qaldırılaraq dünyanın inteqrasiya prosesi sürətləndi. ABŞ-ın himayəsində qurulan IMF, OECD, GATT, Dünya Bankı da məhz maliyyə bazarlarını qloballaşma vasitəsinə çevirmişdir. 1971-ci ildə Bretton-Vud sisteminin böhranı başda ABŞ olmaqla, Almanya, Yaponiya və İngiltərənin sərmayə hərəkətlərindəki məhdudiyyətləri ləğv etməsi, qloballaşma prosesini daha da sürətlənmişdir. Qloballaşma prosesi ilə birlikdə hər hansı bir milli dövlətə tabe olmayan transmilli korporasiyaların ortaya çıxması və beləliklə iqtisadiyyatın liberallaşması “sərhədsiz qlobal iqtisadiyyatın” formalaşmasına gətirib çıxardı. Dövlətlər tərəfindən ticarəti tənzimləyən maneələr aradan qaldırıldı və sərmayə nəzarəti ləğv edildi [7, s.77].

Qloballaşma ilə bağlı görüş və yanaşmalar müxtəlifliyi ilə diqqət çəkir. Bəzi görüşlərə görə, qloballaşmanın inkişaf etmiş və etməkdə olan ölkələr arasındakı fərqləri azaldacaq, bəziləri görə isə müstəmləkəçilin müasir formudur, kimiləri isə hər iki görüşə qarşı çıxır. Qloballaşma ilə bağlı əsasən üç yanaşma mövcuddur: “hiper qlobalistlər”, “skeptiklər” və “transformatorlar” [9, s.3-10]:

DOI:10.30546/gdu.3.2024

Hiper qlobalistler: Qloballaşmaya daha çox iqtisadi cəhətdən yanaşırlar. Bu fikrin nümayəndələrinə görə, qloballaşma dünyanın hər yerində insanların qlobal bazarlara daha çox tabe olmasıdır. Buna görə, qloballaşma nəticəsində transmilli korporasiyaların birbiri ilə rəqabət etdiyi qlobal bir bazarın formalaşması nəticəsində dövlətlərin iqtisadi bir vahid kimi təsirləri geçmişə nəzərən xeyli azalmışdır.

Skeptikler: Bu görüşün nümayəndələri qloballaşmaya şübhə ilə yanaşırlar. Müasir dövr ilə keçmiş dövr arasında bir fərqin olmadığını iddia edən skeptiklərə görə, hər hansı bir yenilik baş verməmişdir, yəni qloballaşma yeni bir proses deyil. Qloballaşmanın bu qədər səsləndirilməsi hiper-qlobalistlərin prosesə fərqli yanaşmalarından irəli gəlir.

Transformistlər: Bu görüşün nümayənlərinə görə, qloballaşma müasir cəmiyyətləri və dünya nizamını formalaşdıran sürətli sosial, siyasi və iqtisadi dəyişikliklərin arxasında duran əsas siyasi qüvvədir. Əsləndə transformistlər qloballaşmanın müasir cəmiyyətləri və yeni dünya nizamını yenidən formalaşdırdığını iddia etsə də, iqtisadiyyat faktorunun üstündə daha çox dururlar.

***İqtisadiyyat:*** Qloballaşma dedikdə ilk növbədə ağla iqtisadiyyat və iqtisadiyyatın qloballaşması gəlir. 90-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması ilə maliyyə bazarları qlobal bir hal almışdır. Sosialist blokun dağılması ilə birlikdə qloballaşma prosesinin bütün dünya ölkələrinə yayılması üçün ən böyük maneə də aradan qalxmışdır. Bu dövrdə sosialist ölkələrin izlədikləri planlı iqtisadiyyat modelinin yerini liberal bazar iqtisadiyyatı almışdır. Liberal bazar iqtisadiyyatının qloballaşmasında heç şübhəsiz IMF, Dünya Bankı, GATT və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi beynəlxalq maliyyə təşkilatları böyük əhəmiyyətə malikdir. İqtisadi qloballaşma prosesindəki ən vacib inkişaflardan biri ticarət fəaliyyətlərinin güclənməsindən ötrü ölkələr arasında qarşılıqlı asılılığın artmasıdır. İqtisadi qloballaşmanı əslində kapitalizmin əsas bir mərhələsi olan imperializmin bütün dünyaya yayılması məqsədilə bir ideologiya vasitə olduğu fikrini irəli sürən tənqidçilərin sayı da az deyil.

***Texnologiya:*** Əslində sosial prosesləri təkcə texnologiya ilə əlaqələndirmək doğru bir yanaşma olmaz. Lakin bununla birlikdə, texnologiya determinizm ilə bağlı tənqidləri də nəzərə almaq şərtilə, texnologiyanın qloballaşmaya təsirini inkar etmək mümkün deyil. Xüsusilə 80-ci illərdən etibarən informasiya texnologiyalarının inkişaf edərək bütün dünyaya yayılması "zaman və məkan" anlayışını kökdən dəyişmişdir. Müasir dövrdə texnologiya beynəlxalq mübadilə prosesini sürətləndirərək qlobal miqyasda transformasiya təsir göstərməkdədir.Friedman, Fukuyama və Ohmae kimi nəzəriyyəçilər texnologiyanı qloballaşmaya təkan verici bir qüvvə hesab etməkdədirlər. Texnologiyanın çox daha uzağa, daha sürətli, daha effektiv, daha ucuz, daha geniş sahəyə yayılması qlobal təsirini ortaya qoymaqdadır. Rabitə texnologiyaları vasitəsi ilə iqtisadi, mədəni, siyasi sahələrə yayılan qloballaşma qlobal bütünləşmə və oxşarlığa səbəb olmaqdadır. Cozef S. Nay (Joseph S. Nye)-a görə qloballaşma, beynəlxalq mübadilə qarşısındakı maneələri azaldan texnologiya sahəsindəki tərəqqilər və hökumətin apardığı siyasətin birgə bir nəticəsi olaraq texnologiyanın iki əsas faktoru arasında yer almaqdadır [10, s.102]. Beləliklə texnologiyanın qloballaşması yenə də kapitalist iqtisadiyyatın inkişafına töhvə verməkdədir çünkü qloballaşma mənbəyi ya da əsası hesab edilən elm və rabitə texnologiyaları əslində kapitalın sistemin dünya miqyasında yayılmasına xidmət edir.Bundan başqa, texnologiya sahəsindəki qloballaşma eyni zamanda Amerikanın və qərbin dəyər, düşüncə və yaşayış tərzinin bütün dünyaya yayılmasına səbəb olmuşdur. Bəzi tənqidçilər bunun mədəniyyətlərarası ahəngi pozacağını və fərqləndirmə və parçalanmaya səbəb olacağını irəli sürürlər.

***Siyasət:*** Qidens qloballaşmaya müraciət etməyən heç bir siyasi ifadənin bu gün tam olmadığını qeyd edir (6, s.20). Siyasi qloballaşma müasir dünyada siyasi hakimiyyət, nüfuz və

DOI:10.30546/gdu.3.2024

idarəetmə formalarının konstruktiv transformasiyası olaraq ifadə edilə bilər. “Qlobal siyasət” anlayışının daha aktual olduğu bu dövrdə siyasətdə iştirak edən subyektlərin çoxluğu və müxtəlifliyi diqqət çəkməkdədir. Ortaya çıxan yeni dövlətlər, hökümətlərarası təşkilatlar, qeyri-hökumət təşkilatları və transmilli korporasiyalar müasir dövrün siyasətini yenidən formalaşdırmışdır. Beynəlxalq münasibətlər ən sadə bir ifadə ilə beynəlxalq arenada dövlətlər və dövlət sistemləri, siniflər, ictimai, iqtisadi, siyasi güclər, təşkilatlar və ictimai hərəkətlər arasında iqtisadi, siyasi, ideolojik, hüquqi, diplomatik və digər əlaqə və qarşılıqlı münasibətlər toplusudur [2, s.11]. Bu termin Avropada XVIII əsrin sonlarında ortaya çıxmış və Avropa müstəmləkəçiliyindən ötrü dünya miqyasında yayılmışdır. Bu gün də müasir beynəlxalq əlaqələr sisteminin tənzimləyən fundamental prinsiplər 1648 tarixli Vestfaliya müqaviləsi ilə müəyyən edilmişdir [3, s.5-6].

1945-ci ildən sonra beynəlxalq əlaqələrin təkamülü iki ardıcıl beynəlxalq nizam çərçivəsində baş verdi: ilk növbədə iki qütblü (1945 - 1991), sonra isə SSRİ-nin dağılmasından sonra plüralist-tək qütblü. “Soyuq müharibə ABŞ ilə SSRİ arasındakı dəyişkən münasibətlər və beynəlxalq əhəmiyyətli təsirləri ilə beynəlxalq münasibətlərdə üstünlük təşkil edən qırx illik bir münaqişə idi. ABŞ və SSRİ böyük miqdarda nüvə silahına və qlobal xarici siyasətinə görə “super güclər” kimi tanınırdılar. Çünki onların qarşıdurması iki fərqli ideolojidən yaranan “soyuq” müharibə kimi tanınır. ABŞ liberal demokratiyanın və kapitalizmin beynəlxalq yayılmasını görmək istəsə də, SSRİ beynəlxalq nizamın kəskin şəkildə dəyişdirilməsi məqsədi ilə inqilabi kommunizmin inkişafını görmək istəyirdi. Soyuq müharibə 1980-ci illərin sonlarında sona çatdıqda, ABŞ və SSRİ arasındakı ideoloji bölünmə kommunizmin dağılması və liberal demokratiya və kapitalizmin qələbəsi ilə nəticələndi” [8, s.6]. 80-ci illərin sonlarında Soyuq müharibə başa çatdıqdan sonra beynəlxalq münasibətlərdə qloballaşma həm elm həm də digər sahələrdə daha aktual bir mövzu və müzakirə obyektine çevrilmişdir. Kissincer “Amerikanın xarici siyasətə ehtiyacı varmı?” (“Does America Need a Foreign Policy?: Toward a Diplomacy for the 21st Century”, 2001) adlı kitabında müasir dünyada ən azı dörd beynəlxalq münasibətlər sistemi paralel olaraq mövcuddur: birincisi ABŞ və Qərbi Avropanı, ikincisi Asiyanı (Rusiya da buraya daxildir), üçüncüsü Yaxın Şərqi, dördüncüsü isə Afrikanı əhatə edir [3, s.10-11]. Sadalanan bu beynəlxalq sistemlərin hər biri fərqli yanaşmalar tələb etsə də, qloballaşma prosesləri ilə birlikdə müxtəlif fikirlər də ortaya atıldı.

“*Realistlər* qloballaşmanı “mədəniyyətlərin toqquşması” (S. Hantinqton); “Soyuq müharibədə ABŞ liderliyində Şərqin Sovet İttifaqına qarşı qələbəsi və yeganə böyük gücün dünyanın geri qalan hissəsinə müntəzəm şəkildə yayılması” (H. Kessincer); “müəyyən bir regiona bağlı artıq birinci dərəcəli rola malik olmayan ittifaq siyasəti başda olmaq üzrə, dünyanın geosiyasi cəhətdən yenidən nizamı” (F. Saşvald (F. Sachwald)); *Neoliberalistlər* “qloballaşmanı “tarixin sonu” (F. Fukuyama), son qələbə və bazar iqtisadiyyatı, plürialist demokratiya, insan hüquq və azadlıqları kimi qərbin dəyərlərinin bütün dünyaya yayılması; dövlətlər arasındakı qarşılıqlı əlaqədə beynəlxalq hüquq normalarının getdikcə daha geniş istifadəsi (M. Zaker); *Neomarksistlər* məqsədi dünyada iqtisadi bərabərsizliyi möhkəmlətmək və “perifirik” və “yarıperiferik” region və ölkələrin “dünya mərkəzi”nin böyük monopoliyalar vasitəsi ilə istismar edilməsi olan monopolist kapital və amerika imperyalizmin məqsədyönümlü strategiya (R. Koks); öz inkişafının ehtiyacları üçün dünyanı hakimiyyəti altına alınmasına yönələn qlobal kapitalist siyasəti ehtiva edən “imperyalizm” terminin yerine istifadə edilir (S. Amin) [4, s.214-215].

Beynəlxalq münasibətlərə təsir edən başlıca amilləri aşağıdakı kimi sıralamaq mümkündür:

DOI:10.30546/gdu.3.2024

*1) Beynəlxalq aktyorlar:* Qloballaşma prosesi ilə birlikdə beynəlxalq aktyorlar dəyişdi. Beynəlxalq arenada dövlət saysının çoxalması dövlətlərin beynəlxalq sistemin yeganə aktyoru olduğu görüşünün aktuallığını itirmişdir. Bu gün dünyada qlobal siyasət anlayışının getdikcə gücləndiyi görülür. Bu vəziyyət siyasətin ənənəvi anlayışından fərqli olaraq beynəlxalq münasibətlərdə qloballaşmanın təsiri ilə çox aktyorlu bir beynəlxalq quruluşuna işarət edir. Yeni dünya nizamı ilə birlikdə beynəlxalq arenaya çox sayıda yeni dövlətlərlə yanaşı kollektiv, çoxmillətli, maliyyə və qlobal xarakterli başqa aktyorlar da çıxdı [5, 1999].Əsas məqsədlərinin təhlükəsizlik, rifah və insan hüquqlarının təmin edilməsi və davamlılığının qorunması olduğu iddia edilən Birləşmiş Millətlər Təşkilatı (BMT), Şimali Atlantika Müqavilə Təşkilatı (NATO), Avropa İttifaqı (Aİ) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi hökumətlərarası təşkilatları (IGO) daha əvvəldən qurulmuş olmalarına baxmayaraq yeni dünya nizamına və beynəlxalq şərtlərə uyğunlaşmaq məcburiyyətində qaldılar. Fəaliyyət sahələri müxtəlifləşdi və genişləndi.

*2) Beynəlxalq nizam:* Ceyms Rosenauya (James Rosenau) görə qloballaşma ərazi və ya hüquqi maneələri aradan qaldıran, milli sərhədləri aşan və dünyanın istənilən nöqtəsinə, istənilən cəmiyyətə uzana bilən prosesdir [11, s.499].

Beynəlxalq münasibətlərin dəyişməsinə səbəb olan bir digər amil qloballaşma ilə birlikdə dövlətlərin aralarında müxtəlif sahələrdə apardıqları inteqrasiya siyasəti dövlətlərin suverenliklərini tədricən itirmələrinə gətirib çıxarmışdır. Ölkələr demokratiya, insan hüquq və azadlıqları, sosial və iqtisadi inkişaf, qanunvericilik kimi müxtəlif sahələrdə "humanitar müdaxilə"lərə məruz qalmışdır. Bundan başqa beynəlxalq münasibətlərdə eyni zamanda siyasətin də iqtisadiləşməsi amilləri də açıqca nəzərə çarpır. "İqtisadi inteqrasiya dövlətlərarası qarşılıqlı əlaqələrin daha da sıxlaşmasını, ticarət dövriyyəsi önündəki maneələrin aradan qaldırılmasını təşviq edir. Beləliklə, əgər əvvəllər beynəlxalq münasibətlər iki tərəfli və çox tərəfli sazişlər ilə tənzimlənirdi isə, qloballaşma ilə birlikdə yeni bir mərhələyə geçildi. Bu dövrdə beynəlxalq münasibətlər siyasi inteqrasiyanın daha yüksək olduğu beynəlxalq birliklər vasitəsilə tənzimlənir" [1, s.16].

**Nəticə.** 90-cı illərin ikinci yarısında Berlin divarının aradan qalxması ilə dünyanın müxtəlif yerlərində başlayan müstəqillik dalğası beynəxalq arenaya çox sayıda yeni müstəqil dövlətlərin çıxması ilə müşahidə olundu. Yeni dövlətlər ilə yanaşı hökumətlərarası təşkilatları, qeyri-hökumət təşkilatlarını, transmilli korporasiyalarının da orta çıxması və mövcud olan təşkilatların dünya miqyasında struktur və fəaliyyətlərini genişlətmələri nəticəsində beynəlxalq maliyyə, iqtisadi, ticari və siyasi əlaqələr intensivləşmişdir. Qloballaşmanın səbəb olduğu bu vəziyyət beynəlxalq münasibətlərin dəyişməsini zəruri hala gətirmişdir. Dövlətlərin apardıqları daxili və xarici siyasət arasındakı sərhəd silinməyə başlamışdır. Belə bir şəraitdə beynəlxalq əlaqələrdə ənənəvi aktyoru olan dövlətlərinin qarşılıqlı bağ və asılılığı da buna paralel olaraq artmışdır. Nəticə etibarilə, müasir dövrdə cəryan edən qloballaşma prosesləri beynəlxalq münasibətlərdə yeni qlobal nizamın formalaşmasına səbəb oldu.

## *Ədəbiyyat*

1.Зюганов Г.А. Глобальное порабощение России, или глобализация «по-Американски». М.: Эксмо, 2011. 352 с.

2.ИноземцевН.Н.Ленинский курс международной политики КПСС.М.:,1978, 206 с.

3.Кессинджер Г. Нужна ли Америке внешняя политика?. Пер. с анг. под ред. В.Л.Иноземцева. М.: Ладомир, 2002, 352 с.

4.Цыганков П.А. Теория международных отношений. Учебник. 2-е изд., испр. и доп. М.: Гардарики, 557 с.

DOI:10.30546/gdu.3.2024

5.Berton P. International Negotiation: Actors Structure/Process Values. Palgrave Macmillan US. 1999, 371 p.
6.Giddens A. Elimizden Kaçıp Giden Dünya. Çev. O. Akınhay. İstanbul, Alfa Yayınları, 2000, 210 s.
7.Giddens A. Modernliğin Sonuçları. Çev. Ersin Kuşdili. İstanbul, 2004, 172 s.
8.Haynes J., Hough P., Malik M. and Pettiford L. World Politics: International Relations and Globalisation in the 21st Century. 2nd Edition. SAGE Publications Ltd., 2017, p.19.
9.Held D., McGrew A., Goldblatt D., Perraton J. Global Transformations: Politics, Economics and Culture. Cambridge, Polity Press. 1999, p.544.
10.Nye J.S. Amerikan Gücünün Paradoksu. İstanbul, "Literatür Yayıncılık", 2003. 261 səh.

## ТРАНСФОРМАЦИЯ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

***Ализада Илаха Ариф кызы***

***Резюме***

Глобализация, как и во многих других областях, имеет особое значение в международной политике и международных отношениях. Сегодня когда речь идет о международных отношениях подразумеваются не только отношения между традиционными государствами, а также многосторонние отношения между новыми актерами, обладающими важным международным авторитетом.

## TRANSFORMATION OF MODERN INTERNATIONAL RELATION IN THE CONDITIONS OF GLOBALIZATION

***Alizada Ilaha Arif***

***Summary***

Globalization, as in many other areas, is of particular importance in international politics and international relations. Today, when it comes to international relations, it implies not only relations between traditional states, but also multilateral relations between new actors with important international authority.

***Rəyçi: s.e.d. Elşad Mirbəşiroglu***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının 23 may 2024-cü il tarixli 7 saylı İclas protokolu***
***Daxil olma tarixi 10 oktyabr 2024-cü il***